Ünvan: Masazır-2, AZ0123, Abşeron, Azərbaycan
E-mail: info@matanata.com Web: www.matanata.com
Tel.: (+994 12) 342 99 33; Çağrı mərkəzi: *3030
Faks: (+994 12) 342 93 00; Mob.: (+994 50) 225 27 27

№ MA-02/039 "28" "01" 2021 il

**Azərbaycan Respublikası Auditorlar Palatasının sədri**
**cənab Vahid Novruzova**

Azərbaycan Respublikasının Auditorlar Palatası
Daxil № 75
01.02.2021 il

**Hörmətli Vahid müəllim,**

Sizi və kollektivinizi Auditorlar Palatasının yaranmasının 25 illiyi münasibəti ilə təbrik edir, audit fəaliyyətinin inkişafı və tərəqqisi uğrunda apardığınız işlərdə uğurlar arzulayırıq.

Əsası Ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan və bu gün Möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən ölkəmizin inkişaf strategiyası bütün sahələrdə böyük tərəqqiyə və yüksəlişə səbəb olmuşdur. Həyata keçirilən uğurlu islahatların nəticəsində ölkəmizdə güclü sahibkarlar sinfi formalaşmış, əlverişli biznes mühiti yaranmış, rəqabətqabiliyyətli, ixracyönümlü istehsal və xidmət sahələri meydana gəlmişdir. Müasir dövrün çağırışlarına uyğun olaraq yeni nəsil islahatların həyata keçirilməsi sayəsində ölkəmizdə sahibkarlıq fəaliyyəti keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. İqtisadi inkişafın təmin edilməsində, sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasında, sağlam rəqabətin formalaşmasında səmərəli və effektiv şəkildə yaradılmış maliyyə münasibətləri, beynəlxalq audit standartlarının ölkəmizdə tətbiqi , bütün təsərrüfat subyektlərində maliyyə və mühasibat uçotunun dəqiq və dürüst aparılması siyasətinin müəyyənləşdirilməsinin rolu əvəzedilməzdir. Bu gün Auditorlar Palatası bütün bu siyasətin icrası istiqamətində mühüm rola malikdir.

Palatanın bundan sonrakı fəaliyyətinin də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında işğaldan azad edilmiş ərazilərimizin inkişafı üçün həyata keçirilən iqtisadi islahatlara dəstək olacaq və ölkə iqtisadiyyatında maliyyə şəffaflığının gücləndirilməsində, Azərbaycan iqtisadi qüdrətinin möhkəmləndirilməsində mühüm rol oynayacağına əminik.

Bir daha Sizi və kollektivinizi təbrik edir və işlərinizdə yeni nailiyyətlər arzulayıram.

**Dərin hörmətlə,**
**Elxan Bəşirov**
**"Mətanət A" şirkətinin Müşahidə Şurasının sədri,**
**Azərbaycan Tikinti Materialları İstehsalçıları Assosiasiyasının rəhbəri**

Azərbaycan Respublikası Bakı ş. COMPANY Mətanət A ŞİRKƏTİ